# Mənəvi aspekt Azərbaycanın BRICS-ə inteqrasiyasının ən mühüm amillərindən biridir

"ABŞ-nin daxili işlərinə qarışmaq və xarici siyasətinə təsir etmək üzrə müntəzəm cəhdləri ilə üzləşən Azərbaycan, Cənubi Amerika, Afrika və Asiya ölkələri BRICS-də öz suverenliklərini müdafiə etmək və möhkəmləndirmək imkanı tapır".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında rusiyalı politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis və təhlükəsizlik üzrə ekspert Yevgeni Mixaylov Azərbaycanın BRICS-ə üzv olmaqla bağlı rəsmi müraciətini şərh edərkən deyib.

"Həm Azərbaycanın, həm də digər yeni iştirakçıların təşkilata inteqrasiyasında ən mühüm amillərdən biri mənəvi aspektdir. Bu gün bəşəriyyətin böyük bir hissəsi bütün əxlaq normalarını, xalqların adət-ənənələrini və minillik dəyərləri inkar edən Avropa İttifaqından "yeni" əxlaqın azsaylı, lakin son dərəcə fəal tərəfdarlarının diktəsinə müqavimət göstərir", -deyə agentliyin həmsöhbəti hesab edir.

Politoloqun sözlərinə görə, artıq on ildir ki, bütün qlobal iqtisadi sistem G7 ölkələrinin - Vaşinqton, London, Berlin və ya Parisin Moskva, Pekin və Qlobal Cənubun hər hansı bir ölkəsinin bərabərhüquqlu, hətta kiçik tərəfdaşı rolunda çıxış etməsi reallığını qəbul edə bilməməsi səbəbindən sarsılır. Aydındır ki, Qərbin Rusiya Federasiyasına qarşı sanksiya siyasəti əks effekt verir və BRICS assosiasiyasının inkişafı üçün ilkin şərtlər yaradır.



Mixaylov əlavə edib: "2024-cü ildə, müasir dövrdə planeti misli görünməmiş dünya müharibəsi təhlükəsi bürüyəndə, BRICS-ə getdikcə daha çox yeni iştirakçı qoşulur. Azərbaycan və Malayziyanın müraciəti bunun daha bir təsdiqidir".

BRICS-in mütəmadi olaraq ölkələr arasında müxtəlif səviyyələrdə əməkdaşlığın inkişafına yönəlmiş böyük tədbirlər keçirdiyini xatırladan Mixaylov əlavə edib ki, bu günlərdə, avqustun 27-28-də Moskvada BRICS ölkələrinin Beynəlxalq Bələdiyyə Forumu keçirilir. Burada 126 ölkədən 5 mindən çox nümayəndə, xüsusən də Bakıdan müşahidəçilər iştirak edirlər. "Şübhəsiz ki, bu cür tədbirlər şəhərlərin mütərəqqi inkişafına və iştirakçı ölkələrin qardaş şəhərləri arasında əlaqələrin qurulmasına zəmin yaradır", - deyə rusiyalı politoloq bildirib.

Azərbaycan.- 2024.- 28 avqust, (№ 184).- S.7.